**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# KARL YASPERSİN FƏLSƏFƏSİNDƏ ÜNSİYYƏT PROBLEMİ

İxtisas: 7210.01 – Fəlsəfə tarixi

Elm sahəsi: Fəlsəfə

İddiaçı: **Elnur Məcnun oğlu Rüstəmov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun "Azərbaycan fəlsəfə tarixi" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: fəlsəfə elmləri doktoru, professor
**Fərman Qəhrəman oğlu İsmayılov**

Elmi rəyçi: fəlsəfə elmlər doktoru, professor
**Rafail Ayvaz oğlu Əhmədli**

Rəsmi opponentlər: fəlsəfə elmlər doktoru ,professor
**Rəbiyyət Nurullah qızı Aslanova**

fəlsəfə elmlər doktoru, professor
**Cahangir Rza oğlu Məmmədov**

fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Şikar Mürşüd oğlu İbrahimov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komisiyasının AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.33 Dissertasiya şurası

Dissertasiya Şurasının sədri: Fəlsəfə elmlər doktoru, professor
**İlham Ramiz oğlu Məmmədzadə**

Dissertasiya şurasının elmi katibi: Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Arif qızı Həsənova**

Elmi seminarın sədri: Fəlsəfə elmlər doktoru, dosent
**Aydın Arif oğlu Əlizadə**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ünsiyyət bəşəri mövcudluğun ən fundamental təbii tələbatlarındandır. Sözün həqiqi mənasında insanı insan, cəmiyyəti cəmiyyət kimi formalaşdıran təbii tələbatlar sisteminin əlaqələndirici həlqəsi ünsiyyətdir. Bu mənada problemin aktuallığı onun mahiyyəti və təbiətindən doğur. Məsələyə bu baxımdan yanaşdıqda fəlsəfənin ünsiyyətə, dil probleminə apelyasiyası onun humanistik və sosial funksiyasından irəli gəlir. Ünsiyyəti, kommunikasiya problemini özünün məhək daşına çevirməklə ekzistensialistlər, xüsusilə Karl Yaspers, yalnız fəlsəfi problematikanın deyil, ümumiyyətlə, bəşəriyyətin xoşbəxtliyi naminə misilsiz bir iş görmüşlər. Ünsiyyət problemi nəzəri olduğu qədər praktik, bəşəri məzmun daşıyır. Dünya birliyi, millətlər, dövlətlər, xalqlar, bir sözlə, bütün bəşəriyyət ünsiyyət və kommunikasiyasız nəinki xoşbəxt, heç mövcud da ola bilməz. Ünsiyyət bəşəri mövcudluğun bütün sisteminə məxsus olan elementləri daxilən bir-birinə bağlayır, onların həyatının və inkişafının fundamental şərti kimi çıxış edir.

Dünya sisteminə yenicə qoşulmağa və bu sistemdə özünə layiqli yer tutmağa çalışan Azərbaycan Respublikası və onun xalqı üçün ünsiyyət və kommunikasiya problemi həyati əhəmiyyət daşıyır. Ölkəmiz dünya sivilizasiyasına yalnız qoşulmağa deyil, həm də onun inkişafına öz töhfəsini verməyə çalışır. Bu ünsiyyət probleminin xalqımızın bugünkü amallarının gerçəkləşməsi üçün nə qədər praktik əhəmiyyətə malik olduğunu göstərir. Ünsiyyət və dil, məna və həqiqət problemi XX əsr fəlsəfəsinin, demək olar ki, bütün sistemlərinin guşə daşına çevrilmişdir. Bu sistemlər arasında ekzistensializm və neopozitivizm dil və məna, dil və ünsiyyət problemini fəlsəfənin predmeti kimi yenidən kəşf etdiklərini elan etmişlər. Ünsiyyət fəlsəfə üçün həmişə aktual problem olmuşdur, sadəcə filosofların bir qismi onu qnoseoloji-məntiqi baxımdan tədqiq etməyə cəhd etdikləri halda, Yaspers ona əbədi fəlsəfi problem olan mövcudluq və mahiyyət probleminin tərkib hissəsi kimi baxmışdır. O, ünsiyyət probleminə ekzistensiya, mövcudluq, mahiyyət, xoşbəxtlik, özgələşmə və s. çərçivədə baxır və güman edirdi ki,

ekzistensiya – kommunikativdir, kommunikasiya isə ekzistensionaldır, yəni ünsiyyət yoxsa ekzistensiya və həqiqi bəşəri mövcudluqdan söhbət gedə bilməz. Məhz buradan da o sözügedən ziddiyyətlə - mövcudluq-mahiyyət dilemması ilə üzləşirdi. Həmin ziddiyyətin həllini o ünsiyyət probleminin özündə axtarırdı. K.Yaspers öz tədqiqatlarının nəticəsi olaraq belə bir qənaətə gəlmişdi ki, problemin kökü insanla bağlıdır. O, humanist idealları ünsiyyətə apelyasiya vasitəsilə gerçəkləşdirməyə çalışırdı. Yaspers sübut edirdi ki, müasir dünya "Yer üzərində insanların real vəhdətindən ibarətdir", "indi vahid tam kimi götürülən dünya problemə və vəzifəyə çevrilmişdir"[1]. Dünya miqyasında yeni ruhi situasiya, yeni ruhilik formalaşır. Belə bir şərait özü ilə yeni tipli kommunikasiya modellərinin nəzəri əsaslarının işlənib hazırlanmasını tələb edir. Yaspersin fəlsəfəsində yeni bəşəri münasibətlər sisteminin ən ümumi xarakterə malik konturları verilir, bu sistemin detallarının hazırlanmasına başlamaq nəzəri fikrin aktual vəzifəsi kimi qarşıya qoyulur. Bundan əlavə K.Yaspersin XX əsr fəlsəfəsinin orijinal bir sistem kimi də öyrənilməsi və təbliği də mühüm vəzifə kimi qarşıda durur. O, psixatriya ilə fəlsəfənin sintezini yaratmağa cəhd etmişdir ki, bu da çox vacib məsələdir. Ona görə ki, psixi xəstəliklər yer kürəsinin əhalisinin böyük bir qismini öz cənginə almışdır, digər tərəfdən, psixatriya psixologiyasız öz vəzifəsini yerinə yetirə bilmir. Burada da problemin kökü ünsiyyətlə əlaqədardır, zira psixi pozuntular əslində fərdlə mühit arasında ünsiyyətin anormallığından irəli gəlir. Müasir dünyada yeni tipli şüur – qlobal şüur və deməli, qlobal xarakterli ünsiyyət formaları meydana gəlir. Qlobal şüur şüurun tarixi tiplərinin müəyyən aspektlərini inkar edir. Qlobal şüur ünsiyyət üzərində qurulan insani münasibətləri varlığın mərkəzinə çəkir, tarixi prosesə, insanlararası münasibətlər sisteminin məntiqinə yenidən baxır, elə bir dünyanın, elə bir insanlararası münasibətlər sisteminin öztəsdiqinə can atır ki, orada insan-insanla, insan dünya arasındakı münasibətlər ümumbəşəri vəhdət və insanlararası həmrəylik halında özünü göstərir. Bu isə öz növbəsində ünsiyyət probleminin müasir dövrdə daha aktual xarakter aldığına dəlalət edir.

[1] Ясперс К. Смысл и назначение истории, Республика, М., 1994, с 141.

Bugün milli dilimizdə bu sahədə ədəbiyyatın azlığı bu cəhətdən təəssüf doğurur.

K.Yaspersin qaldırdığı, lakin öz həllini hələ də gözləyən, bəlkə də fəlsəfənin əbədi problemi kimi xarakterizə edilməyə layiq olan kommunikasiya və özgələşmə problemidir. Vaxtilə K.Marks sübut edirdi ki, xüsusi mülkiyyətin, pulun hakim olduğu cəmiyyətlərdə bütün mahiyyətli qüvvələr, o cümlədən dil də özgələşir. Indi pul da var, xüsusi mülkiyyət də, demək, bəşəriyyət hələ də özgələşmiş kommunikativ vasitələrlə əlaqə və münasibət saxlayır. K.Yaspers Marks qədər dərinə getmir, o özgələşmə qüvvələrini maddi varlıqdan şüur sferasına keçirir və inanır ki, məhz bu sferanın törətdiyi "iblislər" – kütləviləşmə, elm və texnika kommunikativ vasitələri elə hala gətirir ki, onlar insanla dünya, insanla insan, insanla onun özü arasında qeyri-ixtiyari olaraq bir ögeyləşmə, yadlaşma törədir. İnsan təbiətin, tarixin və bəşəriyyətin bir hissəsi olduğu halda, özünü onlarla vəhdətdə, doğmalıq halında hiss etmir, o, kimsəsiz, "atılmış" bir məxluqdur. Beləliklə, kommunikasiya vəhdətə və həmrəyliyə, həqiqətə və məhəbbətə xidmət etmək əvəzinə total nihilizmə və tərkidünyalığa xidmət edir. Yaspers böyük humanist filosof kimi hesab edirdi ki, bu hal dözülməzdir. Xilas yolunu o qlobal maştabda vəhdət və həmrəyliyin öztəsdiqində görürdü. Ümumiyyətlə fəlsəfədə, o cümlədən Yaspersin fəlsəfəsində kommunikasiya problemi indi həmişəkindən daha aktual və diqqətə layiqdir. Böyük filosof bu problemin həllinə başlamışdı, yeni nəsillərin vəzifəsi onu davam və inkişaf etdirməkdir. Çünki nə qədər ki, insan var, bu problem də əbədi olaraq aktual qalacaqdır.

İnsan və cəmiyyət üçün bu qədər əhəmiyyətə malik olan ünsiyyət problemi ekzistensializmədək fəlsəfənin tədqiqat sferasına daxil edilməmişdir; kommunikasiya termininin ilk dəfə XX əsrdə fəlsəfi lüğətlərə daxil edilməsi ancaq təəssüf doğurur. Lakin Yaspersdən sonra ünsiyyət istər Qərbdə, istərsə də Şərqdə filosofların diqqətini ən çox cəlb edən problemlərdən birinə çevrildi. Ekzistensializm, o cümlədən K.Yaspersin fəlsəfəsi keçən əsrin 50-60-cı illərindən sonra tədqiq edilməyə başlanmışdır. 1966-cı ildə Yaspersin "AFR hara gedir?" əsəri çıxdıqdan sonra onun dünya görüşündəki loyallıq sovet ideoloqlarının diqqətini cəlb etmiş və

buna görə də həmin əsər dərhal rus dilində nəşr edilmişdir (1969). Lakin 60-cı illərdən başlayaraq bu mövzu ilə əlaqədar çoxlu monoqrafiyalar, külliyyatlar, toplular, məqalələr nəşr edilmişdir.[2] K.Yaspersin fəlsəfəsi, o cümlədən ünsiyyət problemi keçən əsrin 60-cı illərindən ayrı-ayrı monaqrafik tədqiqatların predmetinə çevrilmşdir. A.C.Boqomolov, A.F.Beqiaşvili, J.S.Narski, Y.K.Melvil, R.M.Qabitova, A.N.Tipsina, A.M.Karimski, Y.A.Kimelyov, A.B.Zikova, P.P.Qaydenko və b. bu sahədə tədqiqatlar nəşr etdirmişlər. Sovetlərin çöküşündən sonra artıq ideoloji baryer aradan qaldırılır və bununla da ekzistensializmə, o cümlədən Yaspersin fəlsəfəsinə maraq artır. Bu zamandan etibarən K.Yaspersin, M.Haydeggerin, J-P.Sartrın, A.Kamyunun, M.Buberin, N.Berdyayevin və bir sıra başqa ekzistensialist filosofların əsərləri rus dilində nəşr edilir. O cümlədən xarici müəlliflərin ekzistensializm haqqındakı monoqrafik tədqiqatları rus dilində nəşr edilir ki, onların içərisində O.F.Bolnovun "Философия экзистенциализма" (1999) əsəri xüsusilə qeyd edilməlidir. Bu əsər məxəz kimi Yaspersin əsərlərində problemin işlənməsi üçün mühüm rol oynamışdır. Azərbaycanda ekzistensializm fəlsəfəsinin, o cümlədən K.Yaspersin fəlsəfəsinin öyrənilməsinə təqribən keçən əsrin 70-ci illərindən başlanmışdır. 1970-ci ildə S.Q.İbrahimov "Ekzistensialist etikanın azadlığının anlaşılmasının tənqidi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir[3]; f.e.d., prof. F.Q.İsmayılovun kitabları nəşr olunmuşdur[4]. Bu sahədə milli dilimizdə ən uğurlu iş Yusif Rəhimoğlunun tərcüməsində K.Yaspersin "Tarixin mənası və

---

[2] Современный экзистенциализм. М., 1966, Современная идеалистическая гносеология, М., 1968; Современная буржуазная философия. М., 1972, Современная буржуазная философия и религия, М., 1977; Проблема человека в западноевропейской философии, М., 1988; Буржуазная Философская Антропология XX века, М., 1986: Проблемы и противоречия буржуазной философии 60-70-х годов. М., 1983; Идеалистическая диалектика В XX столетии, М., 1987; Человек и его бытие как проблема современной философии, М., 1978 və başqalarını göstərmək olar.

[3] S.Q.İbrahimov ‚Ekzistensialist etikanın azadlığının anlaşılmasının tənqidi",Namizədlik dissertasiyası, B.1970,

[4] F.Q.İsmayılov, İnsan və dünya , Bakı, Kitab Ppalatası,1994, 173 s.
F.Q.İsmayılov, Seçilmiş əsərləri, Bakı, Kitab 1, 2011,362 s.
F.Q.İsmayılov, Seçilmiş əsərləri, Bakı, Kitab 2,2011,664 s.

təyinatı" əsəridir[5]. Daha sonra f.e.d.,prof. Z.B.Bağırovun[6], f.e.d.,dos. A.Ə.Hacıyevanın [7], f.e.d., dos. Z.B.Ağayevanın [8] bu istiqamətdə əsərlərini göstərmək olar. K.Yaspersin fəlsəfəsinin tənqidi analizinə, o cümlədən ünsiyyət probleminə aid onun mülahizələri Azərbaycan oxucusu üçün olduqca faydalı bir işdir. Qərb fəlsəfəsinin, xüsusilə ekzistensializmin aparıcı simalarının fundamental ideyalarının öyrənilməsi və təbliği əvəzolunmaz əhəmiyyət daşıyır. Ona görə də, ünsiyyət probleminə dair əsərlər, o cümlədən Yaspersin ideyaları dərindən öyrənilməli və təbliğ edilməlidir. Bundan xalqımız ancaq fayda götürə bilər.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini məqalə, monoqrafiya və mətbuat, qismən arxiv materialları, fəlsəfə tarixi və nəzəriyyəsinin təcrübəsi, predmetini isə Karl Yaspersin elmi-fəlsəfi irsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın məqsədi insanlararası əlaqə və münasibətin gerçəkliyi kimi mövcud olan ünsiyyət probleminin Yaspersin fəlsəfəsində qoyuluşu və həllini, onun metod və metodologiyasını öyrənmək, məna və məqsədlərini aydınlaşdırmaqdır. İddiaçı fəlsəfi problematika içərisində ünsiyyət problemini ön sıraya çəkməklə Yaspers nə kimi strateji məqsəd işləmiş, nəyə nail olmuş və nəyə nail ola bilmədiyini müəyyən etməyə çalışır. Bu məqsədin gerçəkləşməsi Yaspersin fəlsəfi irsinin diqqətlə öyrənilməsini və tədqiqini tələb edir ki, bu da tədqiqatın birinci dərəcəli vəzifəsidir. Bu problemin Azərbaycan fəlsəfəsi üçün məna və əhəmiyyətini aşkara çıxarmaq, onun praktik həyatda zəruri olduğunu müəyyənləşdirməkdir. İnsan abstrakt mövcudluq deyildir, o özünü kommunikasiyada və kommunikasiya vasitəsilə yaradır, dünya və özü haqqındakı biliklər sistemini kommunikativ sistemlərin köməyi ilə əldə edir. İnsan-dünya, insan-dil sistemləri mövcudluğun

---

[5] K.Yaspersin "Tarixin mənası və məqsədləri",Bakı .Zəkioğlu nəşriyyatı,2008, 764 .

[6] Z.S.Bağırov .Отчуждение: причины и последствия.Bakı, Elm,2009, 320 s.

[7] Hacıyeva A.Ə. Mədəni-tarixi irsin tədqiqində hermenevtikanın fəlsəfi və metodoloji əhəmiyyəti.Bakı, Adiloğlu nəşriyyatı, 2004, 168 s.

[8] Z.B.Ağayeva. Tənhalığın fəlsəfəsi. Bakı,Beynəlxalq Universitet nəşriyyatı, 2008, 340 s.

fundamental şərtidir; kommunikasiya və kommunikativ vasitələr kompleksi elə bir reallıqdır ki, Yaspersin fəlsəfəsi məhz burada məskən salmışdır. Dissertasiya insan-dünya, insan-cəmiyyət sistemlərində kommunikasiyanın rolu və əhəmiyyətini, bəşəri varlığın təşəkkül və inkişaf dinamikasında onun yerini, ekzistensiyanın istehsalı prosesində kommunikasiyanın generativ funksiyasını, kommunikasiya ilə azadlığın əlaqə və münasibətini, onun özgələşmə qüvvələrinin təşəkkül və inkişafındakı rolunu araşdırmaq məqsədini güdür. Onun qarşısına qoyulan bu məqsəd aşağıdakı vəzifələrin reallaşması yolu ilə həyata keçirilir:

- XIX əsrin axırları və XX əsrin əvvəllərində dilə doğru dönüşün fəlsəfə tarixində ünsiyyət probleminə olan marağın məntiqi nəticəsi olduğunu göstərmək;
- Ən yeni Qərb fəlsəfəsində zahirən fərqli kimi nəzərə çarpan sayəntist və antisayəntist meyllərin vahid bir qovşaqda – dil problemində sintezləşməsi prosesinin dialektikasını açmaq;
- Tarixi inkişaf prosesində sosial sturukturda və intellektual inkişafda baş verən dəyişikliklərə kommunikativ sistemlərin təsirinin mexanizmini müəyyənləşdirmək;
- Kommunikasiya ilə ekzistensiyanın əlaqə və münasibətini tədqiq etmək;
- Özgələşmə qüvvələrinin təşəkkül və inkişafında kommunikasiyanın rolunu göstərmək.

**Tədqiqat metodları.** Şərq və Qərb fəlsəfəsinin inkişaf dialektikasından irəli gələn nəticələr, fəlsəfi təfəkkürün əsaslandığı tarixi təcrübə, metodoloji fikrin nailiyyətlərinin əsaslandığı ontoloji və qnoseoloji prinsiplər, müasir elmin nailiyyətləri, fəlsəfi problematikanın qoyuluşu və həlli üçün tarixən özünü təsdiq etmiş tarixi və məntiqi, deduktiv və induktiv, müqayisə, analiz, sintez, ümumiləşdirmə, izah metodları təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

1. Ünsiyyət və kommunikasiya cəmiyyətin mövcudluğu və inkişafının məhək daşı, fərdlərin və sosial qrupların konsolidasiya vasitəsidir. Ona görə də tarixi prosesin təşəkkülü, mövcudluğu və inkişafı üçün fundamental şərt

olan bu fenomenlər fəlsəfənin predmetinin bir aspekti hesab edilməlidir;
2. Fəlsəfə insanla insan, insanla dünya, mövcudluqla mahiyyət, təfəkkürlə varlıq arasındakı ziddiyyətləri aradan qaldırmaq üçün ünsiyyət vasitələrinin saflaşdırılmasına birinci dərəcəli diqqət yetirməlidir, əks təqdirdə ünsiyyət bir "kabus" kimi ümumbəşəri xoşbəxtlik və firəvanlığın qarşısında keçilməz səd olaraq qala bilər;
3. Ünsiyyət və kommunikasiya vasitələrinin saflığı, idrakın həqiqiliyinin və sosial firavanlığın ümumbəşəri vəhdətinin qarantıdır;
4. Fəlsəfənin dilə doğru dönüşü, dili özünün predmeti kimi yenidən kəşf etməsi fəlsəfədə əsil inqilabdır ki, onu Qərb fəlsəfəsi XIX əsrin axırları və XX əsrin əvvəllərində yaşamışdır; bu proses ən yeni Qərb təfəkkürünü inqilabiləşdirmiş, ekzistensializm epoxasını hakim dünyagörüşünə çevirmiş, ona "gələcəyin fəlsəfəsi" titulunu qazandırmışdır;
5. Fərdlərin azadlığı ancaq kommunikativ fəaliyyət çərçivəsində mümkün ola bilər ki, bu da bütünlüklə cəmiyyətin azadlığından asılıdır; cəmiyyəti azad etmədən nə onun dilini, nə də fərdlərin azadlığını təmin etmək olar;

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat əsəri, hər şeydən əvvəl, onun həsr edildiyi problemin aktuallığından, onun ontoloji və qnoseoloji funksiyasından, nəzəri və praktik əhəmiyyətindən, fəlsəfi problematikada onun yeri və rolundan, məntiqi və metodoloji funksiyasından asılıdır. Bu sadalanan cəhətlərin ünsiyyət probleminin mahiyyəti ilə əlaqədar olduğuna görə onun tədqiqi və bu tədqiqatdan irəli gələn nəzəri müddəalar, nəticələr və ümumiləşdirmələr öz yeniliyi və orijinallığı ilə seçilməyə bilməz. Onlardan daha çox diqqəti cəlb edənlər aşağıda təqdim edilir:

- İstər Şərqdə, istərsə də Qərbdə dilə olan fəlsəfi maraq həmişə yüksələn xətt üzrə getmişdir.
- Dilə doğru dönüş fəlsəfi idrakın xarakterinə öz təsirini göstərdiyindən XIX əsrin axırları və XX əsrin əvvəllərindən başlayaraq idrak (dərketmə) anlama ilə

əvəz olunmağa başlayır, bununla da idrak metafizikası anlama metafizikasına, şüur fəlsəfəsi dil fəlsəfəsinə çevrilir.

- Ünsiyyət probleminə apelyasiya Qərb fəlsəfəsinin iki əks tendensiyasını – sayəntizmi və antisayəntizmi bir qovşağa – dilə doğru gətirir və onlar üçün ortaq tədqiqat sferası hazırlayır.
- Kommunikasiya çərçivəsində fərdiliyin saxlanması azadlığının meyarıdır.
- Kommunikasiya – ekzistensionaldır, ekzistensiya – kommunikativdir, yəni onlar məntiqi cəhətdən bir-birini şərtləndirir. Kommunikasiyanın pozulmasından törəyən anaxronizmlər, özgələşmə ancaq onun bərpası qarşısında geri çəkilə bilər.

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti.** Aparılmış tədqiqatın fəlsəfi, elmi-nəzəri, praktik əhəmiyyəti onun problematikasından irəli gəlir. Kommunikasiya elə bir problemdir ki, elmi və fəlsəfi fikir, hər hansı tədqiqat, praktik həyat, insan və cəmiyyət onsuz ağlasığmazdır. Həm də yeni dünya düzəninin, qlobal şüurun formalaşması üçün fərdləri və cəmiyyətləri fəlsəfi, psixoloji və etik cəhətdən hazırlamaq lazımdır. Təqdim olunan dissertasiya işinin mövzusu da məhz bu məqsədi daşıyır. K.Yaspersin fəlsəfəsi, onun metod və metodologiyasından irəli gələn humanist və ümumbəşəri ideallarin gənc nəsil, intellektuallar, yaradıcı ziyalılar arasında təbliği əslində yeni dünya düzəninin öztəsdiqi, vəhdət və həmrəylik, yer üzərində humanizmin, sülhün və əminamanlığın qələbəsinin şərtidir. Dissertasiyada qoyulan məsələlər və əldə edilən nəticələr də ancaq bu məqsədə hesablandığından onun elmi-praktik əhəmiyyəti mübaliğəsizdir.

**Dissertasiya işinin aprobasiyası və tətbiqi**. İşdən irəli gələn nəticələrlə iddiaçı ictimaiyyəti özünün nəşr olunmuş əsərlərində, habelə Psixologiya Elmi-Tədqiqat İnstitutunda apardığı uzunmüddətli praktik məşğələlərdə tanış etmiş və nəzəri müddəalarının həqiqiliyini praktikada sınaqdan keçirmişdir. Bundan əlavə müəllif ölkənin müxtəlif televiziyalarında və mətbuatdakı çıxışlarında ictimaiyyətə ünsiyyət probleminin məna və

əhəmiyyətini, onun terapevtik funksiyasını tamaşaçı, dinləyici və oxuculara çatdırmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun Azərbaycan fəlsəfəsi tarixi şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın sturukturu və ümumi həcmi**. Dissertasiya işi giriş, üç fəsil və ayrı-ayrı elmi problemlərin izah və şərhini nəzərdə tutan paraqraflardan, tədqiqatın ümumi yekunlarını özündə əks etdirən nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Tədqiqat işi ümumilikdə 316569 işarədən ibarətdir. Giriş 24781 işarədən, birinci fəsil 87197 işarədən, ikinci fəsil 86953 işarədən, üçüncü fəsil 96783 işarədən, nəticə 6259 işarədən istifadə edilmiş ədəbiyyat siyahısı 13784 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılır, problemin işlənməsilə əlaqədar məlumatlar araşdırılır, tədqiqatın obyekti və predmeti, həmçinin tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilir, tədqiqat metodları göstərilir, müdafiəyə çıxarılan əsas müddəalar açıqlanır, tədqiqatın elmi yeniliyi sadalanır, dissertasiyanın nəzəri və praktik əhəmiyyəti göstərilir, dissertasiya işinin aprobasiyası və tətbiqi, daha sonra dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı və sonda dissertasiya işinin strukturu və ümumi həcmi haqqında məlumat verilir.

Dissertasiya işinin I Fəsli **"Fəlsəfədə dil və ünsiyyət problemi"** adlanır ki, o da iki yarımfəsildən ibarətdir. **"Ünsiyyət fəlsəfi problem kimi"** adlanan birinci yarımfəsildə ünsiyyətin problematikliyi və onun fəlsəfi cəhətdən aktuallığı göstərilir, müəyyən edilir ki, ünsiyyət, daha geniş mənada isə kommunikasiya insanın və cəmiyyətin mövcudluğu və inkişafının fundamental şərtidir. Ünsiyyət dedikdə çox vaxt insanlar dil vasitəsilə həyata keçirilən əlaqə və münasibəti nəzərdə tuturlar, kommunikasiya da bu cür məqsəd izləyir, lakin o yalnız dil vasitəsilə deyil, həm də texniki vasitələrlə həyata keçirilən əlaqə və münasibətdir. Ünsiyyət elə problemdir ki, insanın və cəmiyyətin, elmin və fəlsəfənin ona olan

marağı zamanla nəinki azalır, hətta gündən-günə artır. Platonun dili "hər şeyin şahı" adlandırması böyük filosofun dil probleminə xüsusi bir əsər – "Kratil" dialoqunu həsr etməsi bu fikrin bariz ifadəsidir. Platon Sokratın dili ilə deyirdi ki, "gözəl iş öyrənmək lazım gələndə uğur olur. Sən demə, adlandırmada heç də az elm yoxdur" [9] Aristotelin bu problemlə əlaqədar qiymətli mülahizələri vardır. Fəlsəfə tarixində əzəldən bəri mübahisələrə və mübarizələrə səbəb olan "başlanğıcda söz olmuşdur" mülahizəsi dilin və ünsiyyətin insan və cəmiyyət, idrak üçün nə qədər mühüm bir problem olduğunu deməyə əsas verir. A.F.Losev yazırdı ki, "ünsiyyət ictimai varlıq kimi həyat fəaliyyətinin şərti və mənbəyidir". [10] Dissertasiyada göstərilir ki, zaman keçdikcə idrakın dilə, ünsiyyət probleminə diqqəti daha da artır. Idrak inkişaf edərək konkretliyə yüksəldikcə, ifadə tərzinin, idrak vasitəsi kimi dilin rolu artır, onun gerçəkliyi necə əks etdirməsi kimi problem daha da aktuallaşır. Bu yeni dövr fəlsəfəsinin praktikasında özünü göstərir. F.Bekon və R.Dekartın dilə, ifadə vasitələrinə münasibəti göstərir ki, fəlsəfə varlıq haqqında təfəkkürdən idrak metafizikasına transformasiya prosesində dil problemini ön plana keçirməli olur. Bekon idrakı dilin "buxovlarından" qurtarmaq üçün "kabuslar" nəzəriyyəsini işləyib hazırlamışdı. O sübut edirdi ki, "müxtəlif səviyyələrdə yanılmalar səhvlərdən doğur" [11] C.Lokk daha irəli gedir və yazırdı ki, sözlər "gözlərimizdə küldür", "bütün ciddi yanılmaların səbəbi – dildir"[12]; dil "həqiqi idrakın yolunda ən böyük əngəldir"[13]. Dilə olan maraq heç vaxt sönməsə də XIX əsrin axırlarından fəlsəfə - dil, dil -insan, dil- cəmiyyət münasibətlərində yeni mənzərə ilə üzləşirik. Bu onunla əlaqədardır ki, fəlsəfə dillə özü arasındakı münasibətlərə tamamilə yeni rakursdan baxmalı olur.

Birinci fəslin ikinci yarımfəsli **"Ən yeni fəlsəfədə inqilab: dilə doğru dönüşü"** adlanır. Bu dönüşün nəticəsi belə olur ki, fəlsəfə linqvistik gerçəklikdə bütünlüklə varlığı və təfəkkürü deyil, eyni

---

[9] Платон. Собраные сочинений, Т.1. Мыслъ 6, 1990, с. 613.

[10] А.Ф.Лосев. Очерки античного символизма и мифологии. М. Т. I, 1930, с.708

[11] Бэкон Ф. Сочинения в двух томах, т I., «Мысль», 1972, с.27

[12] Локк Дж. Избранные философии произведения, Издательство социально-политической литературы, М., 1960, с.27

[13] Yenə orada, s.435

zamanda özünü axtarır və elan edir ki, dilə dönüşlə o öz varlığını tapır, yəni fəlsəfə ancaq dilə apelyasiya ilə özünü və həqiqətini tapır. XIX əsrin axırları və XX əsrin əvvəlləri intellektual inkişafın elə mərhələsi idi ki, o zaman elmdə və praktikada ağlasığmaz ağlasığana, dərkolunmaz dərkolunana, xəyal, fantastika kimi görünən gerçəkliyə çevrilir. Elmdə baş verən üç böyük kəşf – rentgen şüalarının kəşfi, atomun parçalanması və nisbilik nəzəriyyəsi bəşəriyyətin intellektual varlığını başdan-başa inqilabiləşdirdi və bu da fəlsəfəyə öz təsirini göstərdi. Bu epoxa fəlsəfədə də yeni inqilabi çevrilişi tarixi və məntiqi zərurətə çevirdi. Filosoflar yeni inqilabi situasiyadan çıxış yolunu insana və dilə doğru dönüşdə gördülər. F.Nitşe (1844-1900) həyatı fəlsəfənin predmetinə çevirməklə həyatı fəlsəfiləşdirmək və fəlsəfəni həyatiləşdirmək tələbini irəli sürdü; o sübut etdi ki, insanın və həyatın problemə çevrilməsi fəlsəfənin obyektə, obyektivliyə bağlılığı ilə əlaqədardır. Ona görə də fəlsəfə subyektivləşməli – dönüb xalis insan fəlsəfəsi olmalıdır. Bununla da o fəlsəfəni antisayəntizmə, antropologizmə doğru istiqamətləndirirdi. Əsrlərin qovuşuğunda ikinci tendensiya Vyana-London istiqamətində formalaşır. Bu tendensiyanı təmsil edən filosoflar pozitivizmi dərinləşdirməyə çalışır və sayəntist istiqamət götürürlər. Bu tendensiyanın tərəfdarları klassik fəlsəfi problematikadan imtina edərək fəlsəfəni elmə doğru istiqamətləndirir və inanırlar ki, fəlsəfə varlığın fəlsəfəsi deyil, elmin fəlsəfəsi olmalıdır. Elmin də insan fəaliyyətinin nəticəsi olduğunu nəzərə alsaq onda hər iki tendensiyanın vahid bir nöqtədə - insanda birləşməsinin şahidi olarıq. Beləliklə, hər iki tendensiya insana apelyasiya edir və fəlsəfəni ondan konstruksiya etməyə çalışır. Lakin sayəntistlər dilə xalis məntiqi konstruksiyalar kimi baxır və əsrin əsas problemi olan məna problemini də onlardan hasil etməyə cəhd etdikləri halda, antropologistlər mənanı, və deməli, dili insanda, onun varlığında, aktual mövcudluğunda axtarırlar. Sonuncular hesab edirlər ki, dil-yaşanan, aktual olan və yaşanmış həyatdır.

Qərb fəlsəfəsində antropologist tendensiya ekzistensializmi doğurdu və onun da tərəfdarları belə bir faktdan çıxış etməyə başladılar ki, dil, ünsiyyət və kommunikasiya elə bir sferadır ki, fəlsəfə onda özü üçün fundamental baza tapır, onda məskunlaşır.

Dilə doğru dönüş məna, məzmun, münasibət, ünsiyyət, qayğı, absurd, varlıq, situasiya və s. kimi problemlərin fəlsəfənin mərkəzinə çevrilməsi kimi anlaşılmalıdır ki, bunu da ekzistensialistlər həyata keçirdilər.

Ekzistensializm varlıq kateqoriyası üzərində qurulan ontoloji sistemdir. Onun tərəfdarları hər şeydən əvvəl varlıq kateqoriyasına xüsusi məna verir, onu insandan, onun hərəkət-rəftarından, onun arzu və istəklərindən, dünyaya və özünə münasibətindən, fəaliyyətindən, dünyada olma tərzindən, bir sözlə, subyektivlikdən konstruksiya edirlər. Onlar üçün varlıq insan varlığıdır ki, bunu onlar ekzistensiya adlandırırdılar. Varlığı onlar mövcudluğun sinonimi kimi götürürdülər. Ekzistensialistlər hesab edirlər ki, varlığın klassik anlayışından deyil, ancaq onun mənasından söhbət gedə bilər, ona görə ki, insan özünü öz varlığını istehsal edərkən hər necə gəldi hərəkət edə bilməz; o öz varlığını ancaq mənalandıra bilər. Deməli, söhbət varlıqdan deyil, varlığın mənasından gedə bilər. Məhz bu mənada M.Haydegger "Humanizm haqqında məktub" əsərində yazırdı: "insan varlığın çobanıdır",[14] varlıq Allah da deyil, dünyanın əsası da, o – yaxınlıqdır. Ekzistensialistlər bir məsələdə müstəsna yekdillik nümayiş etdirirlər; varlıq-dildir, insan nə danışırsa elə odur. Sartr hesab edirdi ki, varlıq ifadə üçün açıqdır, sadəcə insan onu olduğu kimi ifadə etməyə hazır deyildir. Beləliklə, bütün ekzistensialistlər varlıqla dili eyniləşdirir və bununla da varlıq kimi götürülən dili öz fəlsəfələrinin predmeti kimi anlayırlar. XX əsrin iki möhtəşəm fəlsəfi cərəyanları – neopozitivizm və ekzistensializmin dilə dönüşü ilə Qərb fəlsəfəsi özü üçün yeni predmet müəyyən edir; bu dil hesab edilir.

Işin II fəsli **"K.Yaspers fəlsəfəsi: kommunikasiya və mövcudluq problemi"** adlanır. Həmin fəsil də iki yarımfəsildən **"Karl Yaspersin ünsiyyət fəlsəfəsi tədqiqatın proloqomenası kimi"** və **"Ekzistensiya və kommunikasiya"** ibarətdir. I yarımfəsildə əsaslandırılır ki, dil, insanın fundamental atributu kimi heç vaxt fəlsəfənin diqqətindən kənarda olmamışdır. Lakin dil problemi heç vaxt XX əsrdəki qədər aktual olmamış – fəlsəfənin

---

[14] Проблема человека в западной философии, «Прогресс», М. 1958, 329 с.

qəlbinə, onun taleyüklü probleminə çevrilməmişdir. Bu da onunla əlaqədardır ki, XIX əsrin axırlarından başlayaraq əsl insan fəlsəfəsi yaratmaq təxirəsalınmaz məsələyə çevrilmişdir. Başqa cür ola da bilməz, çünki "İnsan-Əsrin Beyni-Zəmanəsinin daşıyıcısıdır".[15] Bu mənada fəlsəfənin insana dönüşü epoxanın inkişaf dialektikasından irəli gəlir. Bu istiqamətdə Karl Yaspersin tarixi xidməti misilsizdir. O, ən yeni Qərb fəlsəfəsində insan fəlsəfəsinə dönüşün beşik başında duran bir fenomendir. Yaspersin tarixi xidməti ondadır ki, onun fəlsəfəyə gətirdiyi ünsiyyət anlayışı fəaliyyət problemi ilə birlikdə bəşər cəmiyyətinin təşəkkülü və inkişafı üçün zəruri şərt olmasına baxmayaraq filosofların diqqətindən kənarda qalmışdı. Ola bilsin ki, Yaspersin ilkin ixtisasının psixiatriya olması bu işə başlaması üçün hərəkətverici qüvvələrdən biri olmuşdur. Məhz həmin anlayışın hesabına ekzistensializm fəlsəfədə böyük çevriliş etdi ki, bu da fəlsəfəyə əvəzsiz xidmət idi. Yaspers özünün kommunikasiya anlayışı ilə kontinentdə fəlsəfənin dilə doğru dönüşünə tamamilə yeni təkan vermiş və bu təlimə görə Nobel mükafatına layiq görülmüşdür. O sübut etdi ki, ünsiyyətdən kənar insan ağlasığmazdır və buna görə o, fəlsəfi tədqiqatın mərkəzinə çəkilməlidir. O, ünsiyyəti insan fəlsəfəsinin manifestinə, proloquna çevirdi, bununla da universal insan fəlsəfəsi yaratmaq üçün həlledici addım atılmış oldu. Sübut olundu ki, ünsiyyət fəaliyyətlər qovşağında yerləşir və buna görə də ona apelyasiya edilmədən insan fəlsəfəsi yaradıla bilməz. Ekzistensializmin sonrakı inkişafı, Qərbdə insan fəlsəfəsinə dönüş bu mülahizənin təsdiqindən başqa bir şey deyildir. Işin ikinci yarımfəsli **"Ekzistensiya və kommunikasiya"** adlanır. Ikinci yarımfəsildə ekzistensiya və kommunikasiya anlayışlarının ontoloji aspektləri və məntiqi cəhətdən bir-birini daxilən şərtləndirməsi əsas problem kimi tədqiq edilir. Məsələ belə qoyulur; ekzistensiya kommunikativdir, kommunikasiya ekzistensional. Yaspers fəlsəfəsinin timsalında ekzistensiya və kommunikasiyanın əlaqə və münasibətini fəlsəfi təfəkkürün mərkəzinə çəkilməsi təsadüfi deyildir. Tarix elə bir situasiya yetişdirmişdir ki, burada insanın ekzistensional varlığı total böhrana məruz qalmışdır – insan əzab

---

[15] Rəfiqə Əzimova, İnsanşünaslıq-XXI əsrin elmidir. B."Təknur", 2012, s.40.

çəkir, o qorxu keçirir, özünü kimsəsiz "atılmış" hesab edir. Yaspersin dediyi kimi, "yer onun ayağının altından qaçır". Yəni keçmişdə fəlsəfə öz problematikasını xarici aləmdə axtarırdısa, indi onun qarşısında duran təxirəsalınmaz vəzifə "boğulan" insana köməklik göstərməkdir. XX əsrin əvvəllərindəki Qərbin fəlsəfi təfəkkürünə diqqət yetirdikcə, demək olar ki, filosofların böyük əksəriyyəti bir məsələdə həmrəydirlər ki, dil "havayı" işləyir, yəni məna istehsal etmir, buna görə də həyat mənasını itirir. Həyatın mənasının itirilməsi – absurdlaşma prosesi bəşəri mövcudluğun böhranı deməkdir. Ekzistensializm bu böhrana reaksiyadır. Bu təlimin "böhran fəlsəfəsi" kimi xarakteristikası da bununla əlaqədardır. Total ekzistensional böhran "xəstəliyin" simptomudur. Ona görə də, ekzistensialist sistemlərdən hər biri bu "xəstəliyə" qarşı bir cür profilaktik tədbir işləyib hazırlayır, bununla da böhrandan çıxış yolu axtarırdılar. K.Yaspers böhranın səbəbini insanlar, cəmiyyətlər, dövlətlər, millətlər arasında ünsiyyətin pozulmasında görür və buna görə də çıxış yolunu onun normallaşdırılmasında axtarırdı. O, inanırdı ki, bəşəriyyətin taleyi zəkadan asılıdır, ona görə də birinci növbədə üzünü kommunikasiyaya çevirməlidir. "Zəka sonsuz kommunikasiya tələb edir, o özü kommunikasiyaya istiqamətlənən total iradədir". [16] Filosof hesab edirdi ki, insan da, zəka da kommunikasiyadır, ona görə də insanı anlamağa çalışan fəlsəfə kommunikasiyanın təzahür forması olan varlığa, mövcudluğa apelyasiya etməlidir. Yaspers ekzistensiya kateqoriyasını kommunikativ situasiyadan, konteksdən, qarşılıqlı əlaqə və münasibətdən hasil edirdi. Onun üçün varlıq və onun həqiqəti kommunikasiyada "görünən" formadadır. Buna görə də Yaspersin fəlsəfəsində kommunikasiya və ekzistensiya bir-biri ilə çulğaşmış vəziyyətdədir – biri digəri üçün şərtdir. Onun üçün "olmaq" – ünsiyyətdə olmaq deməkdir. Bu mənada onun fəlsəfəsi dildən, ünsiyyət prosesindən konstruksiya olunan sistemdir. O inanırdı ki, dil, kommunikasiya, ünsiyyət xaricində heç şey mövcud deyildir. Mövcudluq, varlıq, insan, ekzistensiya, şüur, idrak, həqiqət və s. ancaq kommunikasiyaya aid olan, ondan istehsal olunan şeydir, yəni

---

[16] Ясперс К. Смысл и назначение истории, Республика, М., 1994, 442 с.

onlar kommunikasiyaya immanentdirlər. Ona görə də fəlsəfə obyekt, dünya və s. deyil, "hər şeydən əvvəl düşünən subyekt, onun mövcudluğu ilə maraqlanmalıdır".[17] Ekzistensializm varlığa birbaşa yanaşmır, onun axtardığı şey varlığın özü deyil, onun mənasıdır. Onun üçün mövcud olan şey "varlıq ilə" olan, "varlıqla bir arada", "ortada olan" şeydir, yəni varlıq kommunikasiyaya girən subyektlərdən kənarda təsəvvür edilən şey deyildir. Kommunikasiyaya Yaspers fəlsəfənin taleyi kimi baxır, çünki məhz onda fəlsəfə öz xoşbəxtliyini tapır. Mövcudluq, ekzistensiya Yaspersə görə, həmişə kənara, transendensiya istiqamətlənir; o transendentdir. "Bütün dünya üzərindəki və ya hər cür dünyayadək transendensiya Allah deməkdir". [18] Bir sözlə, onun üçün kommunikasiya, ekzistensiya, tarix, zaman transendensiyaya, yəni öz mövcudluğundan kənara çıxmağa, ilahiyə doğru istiqamətlənməyə meyllidir; bütün həyat transendensiyaya doğru irəliləyir. Ekzistensiya hərəkət və kommunikasiyadır, onlar da transendensiyaya doğru gedir. Bu son məqsəd Allahın varlığına qovuşmaqdır. Yaspers bu inamda idi.

Işin III fəsli **"K.Yaspers fəlsəfəsində həqiqi ünsiyyət və gerçəklik"** adlanır. Həmin fəsil də **"Kommunikasiya və azadlıq problemi"** və **"Kommunikasiya və özgələşmə fenomeni"** kimi iki yarımfəsildən ibarətdir. Kommunikasiya və azadlıq problemi Yaspersin fəlsəfəsinin "əsəb mərkəzidir". İnsanın özünü istehsal və təkrar istehsal etməsi üçün zəruri sfera kommunikasiya olsa da onun özü azadlıqdadır. Filosof sübut etməyə çalışırdı ki, kommunikasiyada insan özünü vasitə kimi deyil, son məqsəd kimi reallaşdırmağa çalışır. Bu isə o deməkdir ki, ekzistensiyanın həqiqəti əslində azadlığın həqiqətidir, yəni azad olmadan insan öz varlığının həqiqətini gerçəkləşdirə bilməz. Azadlıq insanın həyatı və xoşbəxtliyi üçün sadəcə şərt deyil, həyat və xoşbəxtliyin öz gerçəkliyində özüdür. Məşhur yapon ictimai xadimi və filosofu Y.Emori yazırdı ki, "azadlıq yoxsa həqiqi həyat da yoxdur. Xoşbəxtlik və firavanlıq üçün xalqın hüquqlarını möhkəmləndirmək

---

[17] Мир философии, ч.1. Издательство политической литературы, Политиздат, М., 1991, 231 с.
[18] Ясперс К. Смысл и назначение истории, Республика, М., 1994, 69 с.

və azadlığını genişləndirmək lazımdır”. [19] Yaspers də bu fikirlə tamamilə razı idi. O qeyd edirdi ki, ünsiyyət vəhdət və həmrəylik olan yerdədir, bu isə azadlıqdan asılı olan sferadır, yəni azadlıq yoxsa nə vəhdət və həmrəylik vardır, nə də kommunikasiya. Məsələni bu cür qoymaqla Yaspers Mən və özgəsi məsələsini fəlsəfənin mərkəzinə çəkdi, bununla da öz fəlsəfəsinin etik xarakterini açmağa cəhd göstərdi. Azadlıq başqasının mənim üçün ögey olmadığı yerdə yaranır, mən özümü başqasında tanıyıram. Yaspersin fəlsəfəsində zəka ekzistensiya istehsalının vasitəsi kimi çıxış edir və o azadlığı da bu prosesdə tapırdı.

Azadlıq və kommunikasiya, azadlıq və ekzistensiya, o cümlədən azadlıqla əlaqədar digər problemlərin izahında Yaspers ifratçılıqdan yayınırdı; o heç vaxt J-P.Sartr kimi mütləq azadlıq haqqında düşünmür, “özgələri mənim üçün zəhərdir” demirdi. Yaspers üçün kommunikasiya elə bir sferadır ki, orada zəka sahiblərinin azadlığı bir-birindən doğur, ona görə ki, “zamanın tələbi kimi azadlıq hamını birləşdirir”. İnsan və cəmiyyət həqiqi azadlıq istəyir, həqiqi azadlıq isə öz hədlərini anlamaqdır, bu isə zəka ilə əlaqədardır. Azadlığı Yaspers seçim imkanı ilə əlaqələndirir və hesab edir ki, ancaq sərbəst seçim azadlığı həqiqi edir. Bu fəslin II yarımfəsli **“Kommunikasiya və özgələşmə fenomeni”** adlanır.

Özgələşmə fenomeni XX əsr Qərb fəlsəfəsinin antropologist təlimlərinin məhək daşını təşkil edən problemlərdəndir. Özgələşmə ekzistensializmin guşə daşıdır; o problem kimi bu təlimə ən yeni fəlsəfədə ən çox nüfuz qazandıran, onu insana və onun müasir taleyinə daha çox bağlayan bir problemdir. Tam məsuliyyətlə demək olar ki, özgələşmə problemi olmasaydı ekzistensializm heç vaxt “əsrin fəlsəfəsi” və ya “gələcəyin fəlsəfəsi” kimi bir titula sahib ola bilməzdi. K.Yaspers bu problemə kommunikasiya problemi və onun nəticəsi kimi baxır. O sübut etməyə çalışırdı ki, insanları filosofluq etməyə gətirən motivlər – fəlsəfənin təşəkkülü və inkişafının hərəkətverici qüvvələri olan təəccüb, şübhə, çaşqınlıq və təşəkkületmə kimi problemlərin hamısı bir qovşaqda – kommunikasiyada birləşir. Bu problemlərin hamısı “bir şərtə bağlıdır

---

[19] Михайлова Ю.Д. Общественно-политическая мысль в Японии. 60-80-е годы, XIX в, Наука, М., 1991, с.194.

– insanlar arasında kommunikasiya şərtinə”.[20] Yaspers Marksdan fərqli olaraq, özgələşməni kommunikasiyadan hasil edirdi. O, psixiatr kimi sübut edirdi ki, kommunikasiyadan, vəhdətdən, cəmiyyətdən kənarda həyat, insan mövcud ola bilməz. “Bütün həyat ümumilik çərçivəsində həyata keçirilir. Ancaq ümumilikdə fərd özünü reallaşdırır. Ümumilik daimi olaraq fərdin həyatına təsir edir. Fərdin ümumilikdə münasibətlərinin gərginliyi – psixi pozğunluqların aydın olan mənbələrindən biridir”.[21] Beləliklə, Yaspers özgələşmənin mənbəyi və hərəkətverici qüvvəsini kommunikasiyada, ünsiyyət münasibətlərində görürdü, halbuki o, “cinsin ayrı-ayrı nümayəndələrinə təsir edən ictimai varlığa məxsusdur”.[22]

K.Yaspers “zamanın ruhi situasiyasının” məntiqini anlamağa çalışır və qeyd edirdi ki, dəyişmə və bu dəyişikliyə uyğunlaşmaq, ondan çıxış yolu tapmaq müasir situasiyanın əsas problemidir. İndiliyi o çox tutqun və dumanlı bir epoxa kimi təsəvvür edir və inanırdı ki, insanla insan, insanla cəmiyyət, insanla dünya arasında müvazinət pozulmuşdur; elə bil ki, “biz ayaqlarımızın altındakı yeri itiririk”. Müasir insan alternativ qarşısında qalmışdır: ya dəyişilmək, ya da qeyb olmaq. O məsələni belə qoyurdu.

Qərbdə kütləviləşmə, elm və texnika özgələşmə fenomeninin əsas parametri, onun hərəkətverici qüvvələri hesab edildiyindən onlara qarşı mübarizəyə demək olar ki, filosofların böyük əksəriyyəti qoşulmuşdur. Xose Orteqa Qasset yazırdı: “Bir şey şübhəsizdir; Avropa uşaqlıq epoxasına daxil olur”.[23] E.Fromm isə yazırdı: “İndi insan özünü bazarda satmağa hazır olan əmtəə kimi hiss edir”;[24] Qərbin intellektualları bir məsələdə yekdildirlər ki, müasir cəmiyyətdə insan “heçliyə” çevrilmiş, dahilik, talant, zəka qeyb

---

[20] Ясперс К. Введение в философию, в “Путь в философию. Антология. М.,2001, 234 с.

[21] Ясперс К. Общая психопатология. М.1997, с.852.

[22] Лукач Д. К онтологии общественного бытия. Прологомены, Прогресс, М.,1991, 265с.

[23] Х.Ортега-и-Гассет. Дегуманизачия искусства, в сб “Кризис сознания”, Алгоритм, М, 2009.с.154

[24] Э.Фромм, Пути из болного обищества, в сб. “Проблема человека в западноевропоческой философии”. с.101

olmuşdur. Özgələşmə məsələsində Yaspers həm də elmi və texnikanı da təqsirləndirir və o da bu fenomenləri özgələşməni totallaşdıran amil hesab edirdi. Müasir dövrdə, hətta "fəlsəfə öz mənasını itirir". Kommunikasiyanın itirilməsi isə, əsil insanın itirilməsi deməkdir. Müasir özgələşmə haqqında onun inamı belədir. Özgələşmənin aradan qaldırılması işində Yaspersin baxışı bundan ibarətdir ki, özgələşmə kommunikasiyanın pozulmasından əmələ gəldiyi üçün yeganə çıxış yolu onun nizama salınmasından keçir. Bu isə o deməkdir ki, insan özü ilə öz yaradıcılığının məhsulu olan mədəniyyət, elm, texnika və s. ilə əlaqə və münasibətlərini tarixdən və zəkadan gələn prinsiplər, normalar, qaydalar əsasında qurmalıdır. Bu onun özgələşməni dəf etmək üçün müəyyən etdiyi "terapiyadır".

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqata yekun vurulur, araşdırmalar əsasında əldə edilmiş əsas elmi təkliflər və tövsiyələr müəyyən olunur:

- Ünsiyyət bəşəri varlığın forması kimi əzəldən fəlsəfənin diqqət mərkəzində olmuş və ona fəlsəfi maraq həmişə yüksələn xətt üzrə getmişdir;
- Yeni dövrdən başlayaraq fəlsəfə varlıq metafizikasından idrak metafizikasına transformasiya olunduğundan fəlsəfənin dilə yanaşma metodu və metodologiyası dəyişir. Nəticədə fəlsəfə dil probleminə əşyalar və sözlər arasındakı problem kimi deyil, idrakın səlistliyi və düzgünlüyü, yəni həqiqətlə gerçəklik arasındakı problem kimi baxır, müəyyən olunur ki, dil idrakın həqiqiliyi üçün fundamental şərtdir;
- XIX əsrin axırları və XX əsrin əvvəllərindən fəlsəfə idrak metafizikasından anlama metafizikasına transformasiya olunur və buna görə də fəlsəfə dilə ekzistensional problem kimi baxmağa başlayır. Bununla da fəlsəfənin antropolojiləşməsi dil probleminin də qismən antropolojiləşməsilə nəticələnir; neopozitivist filosoflar və ekzistensionalistlər dilə müxtəlif rakursdan yanaşır, lakin eyni nöqtədə - insan problemində birləşirlər;
- Fəlsəfənin ünsiyyət probleminə apelyasiyası ekzistensializmin "gələcəyin fəlsəfəsi" kimi qəbul

edilməsini şərtləndirir, zira nə qədər ki, insan var bir o qədər də ünsiyyət problem olaraq qalacaqdır;

- Kommunikasiya və ekzistensiya məntiqi cəhətdən bir-birini şərtləndirir – kommunikasiya ekzistensionaldır, ekzistensiya – kommunikativdir;
- Ekzistensiyanın situativliyi kommunikasiyanın, kommunikasiyanın situativliyi ekzistensiyanın da situativ olduğunu şərtləndirir, ona görə də, ekzistensiyaya elmi metodlarla yanaşıla bilməz. Elm obyektivliyə istiqamətləndiyinə görə o ekzistensiyanı dərk edə bilməz, ona görə ki, ekzistensiya nə xalis obyektivdir, nə də subyektiv, o obyektivliklə subyektivliyin qovuşağındadır. Bu qovuşuq isə verilmir, o konkret situasiyalar hesabına yaradılır. Situasiyaları obyektivləşdirmək mümkün olmadığına görə ona elmi yolla deyil, ancaq "ekzistensional şəfəqləndirmə" yolu ilə yanaşmaq olar;
- Kommunikasiyanın azadlığı fərdlərin azadlığının ontoloji əsasıdır;
- Kommunikasiyanın rasional əsasda təşkili fərdlərin azadlığının meyarıdır;
- Kommunikasiyanın pozulmasından doğan özgələşmə ancaq onun nizama salınması qarşısında geri çəkilə bilər;
- Müasirliyin dialektikası ünsiyyət problemini daha da aktuallaşdırır, onu fəlsəfi problematikanın nüvəsinə çəkir. Bütün dünyada o cümlədən Azərbaycanda əhalinin psixi cəhətdən sağlamlığı və xoşbəxtliyi üçün bu problemin həlli əvəzolunmazdır. Ona görə də fəlsəfənin, KİV-lərin, nəzəri tədqiqatların mühüm məqsədlərindən biri ünsiyyətin sosial və metodoloji funksiyasını insanlara çatdırmaqdır ki, onlar ünsiyyətin anarxizmindən iztirab çəkməsinlər. Böyük filosof K.Yaspers də "sevə-sevə mübarizə!" deyərkən bunu nəzərdə tuturdu.

**Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı məqalə və konfrans materiallarında öz əksini tapmışdır:**

1. Fəlsəfədə kommunikasiya anlayışı. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, Bakı, 2006, N: 1, s 421-426.
2. Psixatriyadan fəlsəfəyə. Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, "Fəlsəfə" Elmi-nəzəri jurnal, Bakı, 2006. N: 1, s. 103-107.
3. İnam bəşəriyyətin qarşısında həllini gözləyən sual kimi. Azərbaycan Dövlət Dəniz Akademiyasının Elmi əsərləri, Bakı, 2006 N:4, s 136-139.
4. Unamonu ünsiyyət haqqında. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, Bakı, 2006, N: , s 577-580.
5. Analitik fəlsəfədə dil probleminin qoyuluşu, Bakı, 2008 N:1, s 361-366.
6. Феномен отчуждения в философии К.Ясперса. Гілея Науковий вісник, Київ: Випуск 71 (№4), 2013, с. 596-599.
7. Karl Yaspers və fəlsəfədə ünsiyyət problemi, Kitab, Bakı, 2015, 14,5 ç.v., 232 səh.
8. Tanışlığın ilkin mərhələsində problemlər və onların həlli yolları, II Beynəlxalq Ailə və Uşaq Psixologiyası Elmi-Praktik Konfransın materialları, ADMİU-nun mətbəəsi, Bakı, 2018, s. 164-166.
9. Nəsimi və müasirlik. Psixologiya elmi-praktiki jurnal, Bakı, 2019, N3, s.5-11
10. Evlilik öncəsi psixoloji hazırlıq və onun qurulacaq ailəyə təsiri, Psixologiya zirvəsi:problemlər,perspektivlər və yeni yanaşmalar Beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı, 2020, s.155-159
11. Социально-философский анализ эксизтенциальных аспектов общения, Роль инноваций в трансформации и устойчивом развитии современной науки, Сборник статей по итогам международной научно-практической конференции, Российская Федерация, Омск,2020, с 176-181
12. "Kommunikasiya və azadlıq" K.Yaspersin yaradıcılığı kontekstində. Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və

Sosiologiya İnstitutu "Elmi əsərlər" Beynəlxalq elmi-nəzəri jurnal, B.,N 1/36. 2021, İSSN 2219-9810.s.91-100

Dissertasiyanın müdafiəsi "21" dekabr 2021-ci il tarixində saat 11.00 AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.33 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1143.Bakı şəhəri, Hüseyn Cavid prospekti 115, Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və sosiologiya İnstitutu, IX mərtəbə, Konfrans zalı

Dissertasiya ilə AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "_20__" __noyabr________ 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:04.11.2021

Kağızın formatı: A5

Həcm: 36949

Tiraj:100